Seçkilərin Monitorinqi Demokratiyanın Tədrisi
SMDT
Election Monitoring Democracy Studies

Ünvan: 33A/75 Xudu Məmmədov küçəsi, AZ1123, Baku, Azerbaijan
Telefon: (+994 50) 333 46 74
E-poçt: emc.az2001@gmail.com
Veb: www.smdtaz.org

12 mart 2024-cü il Bakı, Azərbaycan

**Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin**
Toplum TV, Demokratik Təşəbüslər İnstitutu və "III Respublika" Platformasının təmsilçilərinin saxlanması ilə bağlı

**BƏYANATI**

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) martın 6-8-də "Toplum TV" əməkdaşları və təsisçilərinin, həmçinin Demokratik Təşəbüslər İnstitutu və "III Respublika" Platformasının üzvlərinin saxlanmasını və ardınca elan olunan ittihamları Azərbaycanda azad media və müstəqil vətəndaş qurumlarına qarşı hökumətin apardığı siyasi repressiyaların davamı hesab edir.

SMDT xatırladır ki, martın 6-da polislərin "Toplum TV", Demokratik Təşəbbüslər İnstitutu və "III Respublika" Platformasının ofislərində apardığı axtarışlar məhkəmə qərarları təqdim edilmədən həyata keçirilib. Axtarışlar zamanı orada olan şəxslərin telefonları əllərindən alınıb və bununla da onların vəkil çağırmaq, yaxınlarını məlumatlandırmaq imkanları məhdudlaşıb. "Toplum TV" təmsilçiləri axtarış zamanı redaksiyanın avadanlıqları və komputerlərinin götürüldüyünü, habelə Youtube və İnstaqram səhifələrinə qanunsuz giriş nəticəsində uzun müddət ərzində toplanan videoların silindiyini bəyan ediblər.

Ümumilikdə, 9 nəfərə qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülərək, onlardan 7 nəfər saxlanılaraq, bununla da Avropa Konvensiyasının 18-ci maddəsi üzrə azadlıq hüququ kobudcasına pozulub.

SMDT qeyd edir ki, Toplum TV, Demokratik Təşəbbüslər İnstitutu və "III Respublika" Platforması təmsilçilərinə qarşı irəli sürülən ittihamlar Azərbaycan hakimiyyəti rəsmiləri və media orqanlarının azad media və müstəqil vətəndaş cəmiyyəti qruplarına qarşı apardığı kampaniyanın gücləndiyi dövrə təsadüf edir. Belə ki, son illlər müstəqil vətəndaş cəmiyyəti təmsilçiləri, hüquq müdafiəçiləri və jurnalistlərin fəaliyyəti "xarici siyasi qüvvələrə" çalışmaq kimi təqdim edilərək, qarayaxma kampaniyası vaxtaşırı olaraq istifadə olunmuş, tənqidçi səslərin etibarsızlaşması yönündə siyasi repressiya halları artmışdır.

SMDT Toplum TV-yə qarşı siyasi təqibləri və həbsləri ölkədə söz və mətbuat azadlığının boğulmasına yönəldiyini, bu repressiya dalğasının ölkədə fikir plüralizmi və alternativ müzakirə imkanlarına ciddi zərbə olacağından narahatlığını ifadə edir.

SMDT həmçinin bəyan edir ki, son siyasi repressiya dalğasında Demokratik Təşbbüslər İnstitutu və Üçüncü Respublika Platformasının hədəf seçilməsi ölkədə birləşmək azadlığı və siyasi həyatda iştirak hüquqlarının kobud şəkildə boğulmasının göstəricisidir. Bu proses 2013-cü ildə müstəqil vətəndaş cəmiyyəti qurumlarına qarşı başlamış hüquqi-siyasi təzyiq prosesinin tərkib hissəsi olmaqla ölkədə müstəqil şəkildə çalışan, hakimiyyətin siyasi himayəsində olmayan vətəndaş qruplarının sıradan çıxarılmasına yönəlib.

SMDT Toplum TV əməkdaşları və təsisçilərinin, həmçinin Demokratik Təşəbbüslər İnstitutu və "III Respublika" Platformasının üzvlərinin həbsi nəticəsində ölkədə siyasi azadlıqların müdafiəsi yönündə böhranın daha da dərinləşdiyini, yaranmış siyasi mühitə görə Azərbaycan hakimiyyəti ilə yanaşı Azərbaycanda insan hüquqlarının müdafiəsində ehtiyatlılıq nümayiş etdirən beynəlxalq qurumların cavabdehlik daşıdığını bəyan edir.

***SMDT Azərbaycan hökumətini və beynəlxalq təşkilatları siyasi azadlıqların qorunması üçün mövcud böhrandan çıxmaq üçün aşağıdakı tədbirləri görməyə çağırır:***

- Azərbaycan hakimiyyəti peşə fəaliyyətlərinə görə həbs edilmiş jurnalistlərin, vətəndaş cəmiyyəti liderlərinin və siyasi fəalların azadlığa buraxılması üçün siyasi iradə nümayiş etdirməlidir;

- Avropa Şurası Nazirlər Komitəsi və Avropa Şurasının Baş Katibi Azərbaycan vətəndaşlarının Avropa İnsan Hüquqları Konvensiyası üzrə hüquqlarının pozulmasına dair Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasına dair tövsiyyələrini hazırlayaraq, bu yöndə təşəbbüskar olmalı və müvafiq təkliflərlə Azərbaycan ictimaiyyətini məlumatlandırmalıdır;

- Avropa Şurası Parlament Assambleyasının həmməruzəçiləri siyasi motivlərlə həbs edilmiş şəxslər, onların vəkilləri və ailə üzvləri ilə görüşmək üçün Azərbaycana səfər etməlidir;

- BMT-nin İfadə azadlığı və azad fikir üzrə xüsusi reportyorunun **və** ATƏT-in Media azadlığı üzrə təmsilçisi Azərbaycana səfər edərək, ölkədə media azadlığının vəziyyəti, jurnalistlər və bloqerlərin təhlükəsiz fəaliyyəti üçün təkliflərini Azərbaycan hakimiyyətinə təqdim etməlidir;